“Dövlət qeydiyyatına alınmışdır “
Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi
Qeydiyyat N 2738

“15” yanvar 2001-ci il

Nazir ___________ F.F.Məmmədov

Azərbaycan Respublikası Mərkəzi Bankı
İdarə Heyətinin 29 dekabr 2001 -ci il
tarixli qərarı ilə təsdiq edilmişdir.
Protokol N 26

İdarə Heyətinin Sədri________ E.S.Rüstəmov

# Azərbaycan Respublikasının bank sistemində icarə əməliyyatları üzrə uçot Qaydaları

(2004-cü il 16 aprel tarixli əlavə və dəyişikliklərlə)

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar «Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında», «Azərbaycan Respublikasında banklar və bank fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunlarına, «Azərbaycan Respublikasının Mülki Məcəlləsi»nə və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına, habelə Azərbaycan Respublikası Mərkəzi Bankının normativ aktlarına uyğun olaraq hazırlanmış və Azərbaycan Respublikasının bank sistemində (bundan sonra «bank») icarə əməliyyatları üzrə uçot qaydalarını müəyyənləşdirir.

1.2. Banklarda icarə müqaviləsinin bağlanması qaydaları və icarə ilə bağlı digər münasibətlər Azərbaycan Respublikasının mülki qanunvericiliyi ilə tənzimlənir.

1.3. Banklarda icarə ilə bağlı əməliyyatlar aparılarkən vergitutma məqsədləri üçün «Azərbaycan Respublikasının Vergi Məcəlləsi»nin müddəaları əsas tutulur.

## 2. Anlayışlar

2.1. İcarə müqaviləsi əmlak kirayəsi müqaviləsidir. Bu müqaviləyə görə kirayəyə verən (icarəyə verən) kirayəçiyə (icarəçiyə) icarəyə götürdüyü obyektdən və y hüquqdan istifadə ilə yanaşı bəhərdən istifadə etmək və gəlir götürmək hüququ da verir.

2.2. Maliyyə icarəsi - icarəyə verilən aktivlə əlaqədar bütün risklər və gəlir icarəçiyə keçən icarədir. Aktivin mülkiyyət hüququ isə icarə vaxtı qurtarandan sonra müqavilə şərtlərinə uyğun olaraq, icarəçiyə keçirilə və ya keçirilməyə bilər.

2.3. Cari icarə - maliyyə icarəsindən fərqli olan istənilən icarədir.

2.4. İcarə müddəti - tərəflər arasında icarəyə verilmiş (icarəyə götürülmüş) aktivdən istifadə barəsində razılaşdırılmış müddətdir.

2.5. İcarə ödəmələri - icarəçi tərəfindən icarə müddəti ərzində müqaviləyə əsasən hissə-hissə həyata keçirilən ödəmələrdir.

2.6. Aktivin balans dəyəri - hesabat tarixinə aktivin icarəyə verənin mühasibat balansında (uçotda) əks etdirilən dəyəridir.

2.7. Aktivin icarə dəyəri - icarəyə verilən aktivin tərəflər arasında razılaşdırılmış dəyəridir.

## 3. İcarənin təsnifləşdirilməsi

3.1. Maliyyə hesabatlarında icarə, maliyyə icarəsi və cari icarə kimi təsnifləşdirilir.

3.2. Maliyyə hesabatlarında icarə, aşağıdakı şərtlərin heç olmasa, biri olduqda maliyyə icarəsi hesab olunur:

- İcarəçi icarə müqaviləsinin sonunda aktiv üzərində mülkiyyət hüququ əldə edir;
- İcarəçi aktivi güzəştlə almaq hüququ əldə edir;
- İcarə müddəti aktivin faydalı xidmət müddətinin 75%-dən çox hissəsini təşkil edir;
- Maliyyə icarəsi üzrə icarə ödəmələrinin həcmi aktivin bazar dəyərinin 90%-dən çox hissəsini təşkil edir.

## 4. Maliyyə icarəsinin uçotu

İcarəçi bank tərəfindən aparılan uçot:

4.1. İcarəçinin maliyyə hesabatlarında maliyyə icarəsinə götürülmüş aktiv müvafiq əsas vəsaitlər və ya qeyri-maddi aktivlər hesablarında icarə dəyəri ilə uçota alınaraq müvafiq qanunvericiliyə uyğun amortizasiya olunur. Maliyyə icarəsinə götürülmüş aktiv eyni zamanda «maliyyə icarəsi üzrə əməliyyatlar» hesabında icarəyə verən qarşısında öhdəlik kimi tanınır.

4.2. İcarəçinin maliyyə hesabatlarında müəyyən edilmiş faiz dərəcəsinə uyğun ödəmələr hər bir dövr üçün daimi faiz dərəcəsini saxlamaq məqsədilə icarə

müddətində dövrlər üzrə bölüşdürülməklə maliyyə ilinin mənfəət/zərər hesablarında xərc kimi tanınır.

4.3. Maliyyə icarəsinə götürülmüş aktivin dəyərinin ödənilməsi icarə müddəti ərzində icarəyə verən qarşısında öhdəliyin azalması kimi tanınaraq «maliyyə icarəsi üzrə əməliyyatlar» adlı balans hesabında uçota alınır.

İcarəyə verən bank tərəfindən aparılan uçot:

4.4. İcarəyə verənin maliyyə hesabatlarında maliyyə icarəsinə verilmiş aktiv müvafiq əsas vəsaitlər və qeyri-maddi aktivlər hesablarında uçotdan çıxarılır və debitor borc kimi tanınaraq «maliyyə icarəsi üzrə əməliyyatlar» balans hesabında icarə dəyəri ilə uçota alınır.

4.5. İcarəyə verənin maliyyə hesabatlarında müəyyən edilmiş faiz dərəcəsinə uyğun daxilolmalar hər bir dövr üzrə daimi faiz dərəcəsini saxlamaq məqsədilə icarə müddətində dövrlər üzrə bölüşdürülməklə maliyyə ilinin mənfəət/zərər hesablarında gəlir kimi tanınır.

4.6. İcarəyə verilmiş aktivin icarə dəyəri ilə balans dəyəri arasında olan fərq mənfəət/zərər hesablarında gəlir və ya xərc kimi tanınır.

4.7. Maliyyə icarəsinə verilmiş aktivə görə daxil olan icarə ödəmələri icarə müddəti ərzində debitor borcun silinməsi kimi tanınaraq «maliyyə icarəsi üzrə əməliyyatlar» adlı balans hesabında uçota alınır.

4.8. Maliyyə icarəsinə verilmiş aktiv icarə müddəti başa çatdıqdan sonra icarəyə verənə geri qaytarılırsa, aktiv qalıq dəyəri ilə uçota alınır.

## 5. Cari icarənin uçotu

İcarəçi bank tərəfindən aparılan uçot:

5.1. İcarəçinin maliyyə hesabatlarında cari icarəyə götürülmüş aktivin uçotu «icarəyə götürülmüş aktivlər» adlı balansdankənar hesabda aparılır.

5.2. İcarəçinin maliyyə hesabatlarında icarə ödəmələri icarə müddəti ərzində bərabər hissələrlə bölünməklə maliyyə ilinin mənfəət/zərər hesablarında aylıq olaraq xərc kimi tanınaraq «icarə haqqı» adlı xərc hesabında uçota alınır.

İcarəyə verən bank tərəfindən aparılan uçot:

5.3. İcarəyə verənin maliyyə hesabatlarında cari icarəyə verilmiş aktivin uçotu müvafiq əsas vəsaitlər və qeyri-maddi aktivlər hesabının müvafiq subhesablarında aparılır və müvafiq qanunvericiliyə uyğun amortizasiya olunur.

5.4. İcarəyə verənin maliyyə hesabatlarında daxil olan icarə ödəmələri icarə müddəti ərzində bərabər hissələrlə bölünməklə maliyyə ilinin mənfəət/zərər hesablarında aylıq olaraq gəlir kimi tanınaraq «icarə gəlirləri» adlı gəlir hesabında uçota alınır.

## 6. Məlumatların açıqlanması

6.1. İcarəçi tərəfindən maliyyə hesabatlarında maliyyə icarəsi üzrə aşağıdakı məlumatlar açıqlanmalıdır:

- hesabat tarixinə hər bir aktiv sinifləri üzrə balans dəyəri;
- hesabat tarixinə ümumi minimal icarə ödənişləri ilə onların diskont olunmuş dəyəri arasında üzləşmə haqqında məlumatlar. Bu məlumatlar aşağıdakı dövrlərdən hər biri üçün açıqlanmalıdır:
  - bir ildən artıq olmayan müddətə;
  - bir ildən artıq, lakin beş ildən artıq olmayan müddətə;
  - beş ildən artıq müddətə.
- dövr ərzində gəlirdə tanınmış icarə haqqı;
- aşağıdakı məlumatlar daxil olmaqla, lakin onlarla məhdudlaşmayan icarəçi tərəfindən bağlanmış əhəmiyyətli maliyyə icarəsi müqavilələrinin ümumi təsviri:
  - icarə ödənişlərinin müəyyən olunduğu əsas;
  - bərpa və alış opsionları və dəyişkən qiymətlər barədə qeydlər və onların şərtləri haqqında məlumatlar;
  - icarə müqaviləsi ilə dividendlərə, əlavə borca və digər münasibətlərə (əməliyyatlara) dair məhdudiyyətlər.

6.2. İcarəçi tərəfindən maliyyə hesabatlarında icarə üzrə aşağıdakı məlumatlar açıqlanmalıdır:

- aşağıdakı dövrlərin hər biri üçün icarənin ləğv olunmayan müqavilələri üzrə gələcək minimal icarə ödənişlərinin cəmi:

- bir ildən artıq olmayan müddətə;
- bir ildən artıq, lakin beş ildən artıq olmayan müddətə;
- beş ildən artıq müddətə.

▪ minimal icarə ödənişləri, icarə haqqı və dövr üzrə gəlirdə tanınan icarə üzrə ödənişlər;

▪ aşağıdakı məlumatlar daxil olmaqla, lakin onlarla məhdudlaşmayan icarəçi tərəfindən bağlanmış əhəmiyyətli icarə müqavilələrinin ümumi təsviri:
- icarə ödənişlərinin müəyyən olunduğu əsas;
- bərpa və alış opsionları və dəyişkən qiymətlər barədə qeydlər və onların şərtləri haqqında məlumatlar;
- icarə müqaviləsi ilə dividendlərə, əlavə borca və digər münasibətlərə (əməliyyatlara) dair məhdudiyyətlər.

6.3. İcarəyə verən tərəfindən maliyyə hesabatlarında maliyyə icarəsi üzrə aşağıdakı məlumatlar açıqlanmalıdır:

▪ hesabat tarixinə maliyyə icarəsi üzrə ümumi investisiyaların məbləği ilə hesabat tarixinə minimal icarə ödənişləri üzrə debitor borcunun diskont olunmuş dəyəri arasında üzləşmə haqqında məlumatlar. Bu məlumatlar aşağıdakı dövrlərdən hər biri üçün açıqlanmalıdır:
- bir ildən artıq olmayan müddətə;
- bir ildən artıq, lakin beş ildən artıq olmayan müddətə;
- beş ildən artıq müddətə.

▪ əldə olunmamış maliyyə gəliri;

▪ icarəyə verənin hesabına aid edilən təminat verilməmiş qalıq dəyəri;

▪ minimal icarə ödənişləri üzrə inkassa olunmayan borcun ödənilməsi üçün yığılmış ehtiyat;

▪ gəlirdə tanınan icarə ödənişləri;

▪ icarəyə verən tərəfindən bağlanmış əhəmiyyətli icarə müqavilələrinin ümumi təsviri.

6.4. İcarəyə verən tərəfindən maliyyə hesabatlarında icarə üzrə aşağıdakı məlumatlar açıqlanmalıdır:

- aktivlərin hər bir sinfi üçün ümumi balans məbləği, yığılmış amortizasiya və hesabat tarixinə qiymətdən düşmədən yaranan zərərləri:
  – dövr üzrə gəlirdə nəzərə alınan amortizasiya;
  – dövr üzrə gəlirdə nəzərə alınan dəyərin azalmasından yaranan zərər;
  – dövr üzrə əvəzi ödənilmiş dəyərin azalmasından yaranan zərər;
- aşağıdakı dövrlərin hər biri üçün icarənin ləğv olunmayan müqavilələri üzrə gələcək minimal icarə ödənişlərinin cəmi:
  – bir ildən artıq olmayan müddətə;
  – bir ildən artıq, lakin beş ildən artıq olmayan müddətə;
  – beş ildən artıq müddətə.
- gəlirdə nəzərə alınan ümumi icarə ödənişləri;
- icarəyə verən tərəfindən bağlanmış əhəmiyyətli icarə müqavilələrinin ümumi təsviri.

## 7. Yekun müddəalar

7.1. Bu Qaydalar Dövlət qeydiyyatına alındığı tarixdən qüvvəyə minir.

**«Azərbaycan Respublikasının bank sistemində icarə əməliyyatları üzrə uçot Qaydaları»na dair metodoloji göstərişlər**

Cari icarə üzrə aşağıdakı mühasibat yazılışları verilir:

İcarəçi:

İcarəçi tərəfindən icarə haqqı hesablanarkən aşağıdakı mühasibat yazılışı verilir:

Dt «İcarə haqqı» xərc hesabı

Kt «Digər kreditorlar» hesabı

İcarəçi tərəfindən icarə haqqı ödənilərkən aşağıdakı mühasibat yazılışı verilir:

Dt «Digər kreditorlar» hesabı

Kt Kassa/ müxbir hesab/ müştərinin hesabı

İcarəyə verən:

İcarəyə verən tərəfindən icarə haqqı hesablanarkən aşağıdakı mühasibat yazılışı verilir:

Dt «Digər debitorlar» hesabı

Kt «İcarə gəlirləri» gəlir hesabı

İcarəyə verən tərəfindən icarə haqqı alınarkən aşağıdakı mühasibat yazılışı verilir:

Dt Kassa/ müxbir hesab

Kt «Digər debitorlar» hesabı

İcarəyə verən icarəyə verilmiş aktivə köhnəlmə hesablanarkən aşağıdakı mühasibat yazılışı verilir:

Dt Müvafiq əsas vəsaitlər və qeyri-maddi aktivlərin köhnəlmə xərcləri

Kt Müvafiq əsas vəsaitlər və qeyri-maddi aktivlər üzrə köhnəlmə

Maliyyə icarəsi üzrə aqağıdakı mühasibat yazılışları verilir:

<u>İcarəçi:</u>

İcarəçi tərəfindən aktiv icarəyə göturulərkən aşağıdakı mühasibat yazılışı verilir:

Dt Müvafiq əsas vəsaitlər və ya qeyri-maddi aktivlər hesabı

Kt «Maliyyə icarəsi üzrə əməliyyatlar» hesabı

İcarəçi tərəfindən maliyyə icarəsi üzrə faiz ödəmələri hesablanarkən aşağıdakı mühasibat yazılışı verilir:

Dt «İcarə haqqı» xərc hesabı

Kt «Digər əməliyyatlar üzrə hesablanmış ödəniləcək faizlər» hesabı

İcarəçi tərəfindən maliyyə icarəsi üzrə faiz ödəmələri həyata keçrilərkən aşağıdakı mühasibat yazılışı verilir:

Dt «Digər əməliyyatlar üzrə hesablanmış ödəniləcək faizlər» hesabı

Kt Kassa/ müxbir hesab/ müştərinin hesabı

İcarəçi tərəfindən maliyyə icarəsi üzrə icarə ödəmələri həyata keçrilərkən aşağıdakı mühasibat yazılışı verilir:

Dt «Maliyyə icarəsi üzrə əməliyyatlar» hesabı

Kt Kassa/ müxbir hesab/ müştərinin hesabı

Əgər aktiv icarəçinin mülkiyyətinə keçirsə, aktivə müvafiq qanunvericiliyə uyğun köhnəlmə hesablanır.

Əgər icarə müddətinin sonunda icarəyə götürülmüş aktiv icarəçiyə geri qaytarılarsa, qaliq dəyəri məbəlğinə aşağıdakı mühasibat yazılışı verilir:

Dt «Maliyyə icarəsi üzrə əməliyyatlar» hesabı

Dt Müvafiq əsas vəsaitlər və qeyri-maddi aktivlər üzrə yığılmış köhnəlmə hesabı

Kt Müvafiq əsas vəsaitlər və qeyri-maddi aktivlər hesabı

İcarəyə verən:

İcarəyə verən tərəfindən aktiv icarəyə verilərkən aşağıdakı mühasibat yazılışı verilir:

Dt «Maliyyə icarəsi üzrə əməliyyatlar» hesabı

Dt Müvafiq əsas vəsaitlər və qeyri-maddi aktivlər üzrə
yığılmış köhnəlmə hesabı

Kt Müvafiq əsas vəsaitlər və qeyri-maddi aktivlər hesabı

İcarəyə verən tərəfindən maliyyə icarəsi üzrə alınacaq faiz gəlirləri hesablanarkən aşağıdakı mühasibat yazılışı verilir:

Dt «Digər qısamüddətli kreditlər və digər əməliyyatlar üzrə
hesablanmış alınacaq faizlər» hesabı

Kt «İcarə gəlirləri» gəlir hesabı

İcarəyə verən tərəfindən maliyyə icarəsi üzrə faiz gəlirləri alındıqda aşağıdakı mühasibat yazılışı verilir:

Dt Kassa/ müxbir hesab

Kt «Digər qısamüddətli kreditlər və digər əməliyyatlar üzrə
hesablanmış alınacaq faizlər» hesabı

İcarəyə verən tərəfindən maliyyə icarəsi üzrə icarə ödəmələri alındıqda aşağıdakı mühasibat yazılışı verilir:

Dt Kassa/ müxbir hesab

Kt «Maliyyə icarəsi üzrə əməliyyatlar» hesabı

İcarə müddətinin sonunda icarəyə verilmiş aktiv geri alınarkən qaliq dəyəri məbləğinə aşağıdakı mühasibat yazılışı verilir:

Dt Müvafiq əsas vəsaitlər və qeyri-maddi aktivlər hesabı

Kt «Maliyyə icarəsi üzrə əməliyyatlar» hesabı